# Edinburq Universiteti

Edinburq Universiteti *(University of Edinburgh)* Avropanın ən nüfuzlu və tanınmış dövlət ali məktəblərindən biridir. Böyük Britaniya Krallığında, Şotlandiyanın paytaxtı Edinburq şəhərində yerləşən universitet dünyanın ingilis dilində tədris aparılan 6-cı ən qədim ali məktəbi hesab olunur. Böyük Britaniyanın ən qədim təhsil ocaqlarından olan bu universitet Şotlandiyada yaradılan dördüncü universitetdir. Ali məktəb Britaniyanın tədqiqat universitetlərini birləşdirən "Russell Qrupu"na, eləcə də "21 universitet" adlı beynəlxalq elmi-tədqiqat assosiasiyasına, Avropa Tədqiqat Universitetləri Liqasına daxildir. ABŞ-ın "U.S. News' Best Global Universities" reytinqinə görə Avropanın 6-cı ən yaxşı universitetidir. Böyük Britaniyanın " QS World University Rankings" jurnalının 2015-2016-cı tədris ili üçün reytinq sıralamasında 21-ci, 2016-2017-ci tədris ili üçün reytinqində isə 19-cu, "The Times Higher Education World University Rankings"-in 2015-2016-cı dərs ili üçün reytinq cədvəlində 24-cü, 2016-2017-ci dərs ili üçün reytinqində 27-ci yerdə qərarlaşıb. Böyüklüyünə görə Böyük Britaniyanın Oksford və Kembric universitetlərindən sonra üçüncü olan ali məktəb Böyük Maarifçilik dövründə Edinburqun nüfuzlu elm mərkəzi kimi özünə "Şimalın Afinası" adını qazandırıb.

**Yerləşir:** Böyük Britaniya, Edinburq şəhəri
**Yaranma tarixi:** 1582-ci il
**Tipi:** Dövlət
**Akademik heyəti:** 3992 nəfər
**Tələbələrin ümumi sayı:** 35582 nəfər
**Rəsmi saytı:** www.ed.ac.uk.





*Universitetin Mühəndislik Məktəbində*



*Universitetin kampusunda*



*2016-cı ilin məzunları*

## Tarixi

Edinburq Universitetinin yaranması şotlandiyalı yepiskop Robert Reydin adı ilə bağlıdır. 1558-ci ildə R. Reyd vəfat edib. O, vəsiyyətnaməsində universitet yaratmaq məqsədilə fond təchiz edilməsini qeyd edir və bütün var-dövlətini fonda bağışlayıb. 1582-ci ildə kral VI Ceyms universitet yaradılması haqqında hazırlanmış xartiyanı imzalayıb. Həmin dövrdə insanların daha çox məskunlaşdığı zəngin İngiltərədə cəmi iki universitet olduğu halda, Edinburq Universiteti Şotlandiyada yaradılan dördüncü ali məktəb olub. 1708-ci ilədək burada bir rəhbər və dörd müəllim çalışıb. İlk vaxtlar ali məktəbdə incəsənət, məntiq, etika, metafizika, riyaziyyat və astronomiya elementləri daxil olmaqla fizika elmləri öyrədilir, Aristotelin ideyaları izah edilib. Artıq XVIII əsrdə Edinburq Universiteti Avropa maarifçiliyinin mərkəzinə çevrilib.

Universitetin ən qədim binalarından biri hazırda Hüquq Məktəbinin yerləşdiyi Qədim Kollec binasıdır. Əvvəllər bu binada anatomiya və cərrahiyyə elmləri öyrədilib. XIX əsrin sonlarında Qədim Kollecdə təhsil alan tələbələrin çoxluğunu nəzərə alaraq, 1875-ci ildə yeni tibb məktəblərinin tikintisinə başlanılıb. 1840-cı ildə burada Müstəqil Kilsə Kolleci inşa edilib. 1920-ci ildən universitetin İlahiyyat Məktəbi kimi fəaliyyət göstərən bu təhsil müəssisəsi hazırda Yeni Kollec adı ilə tanınıb. 1884-cü ildə Robert Bell Edinburq Universitetində Tələbə Assosiasiyası yaradıb. 1889-cu ildə Tələbə İttifaqı rəhbərliyi tərəfindən Edinburq Universiteti Təşkilatının təməli qoyulub.

2002-ci ildən universitet 3 kollec və 22 məktəbə bölünür. Hazırda məktəblərin əksəriyyəti yüksək dərəcəli muxtariyyət və daxili təşkilatçılıq hüququna malikdir. 12 avqust 2002-ci ildə Edinburq hersoqu Şahzadə Filip ən müasir xəstəxana, baytarlıq klinikaları, elmi-tədqiqat institutları açmaq üçün universitetə 40 milyon funt vəsait ayırıb. Beləcə, iki böyük teatr, bir tibb kitabxanası, xəstəxanalar, məktəb, fakültə və institutlar, tədqiqat mərkəzlərindən ibarət olan və Kiçik Fransa adlanan ərazidə yerləşən Edinburq Kral Xəstəxana kompleksi yaradılıb. Ali məktəb Böyük Britaniya kral ailəsi ilə bağlı olub. Edinburq hersoqu 1963-2010-cu illər ərzində, şahzadə Anna isə 2001-ci ildən universitetin kansleri olublar.

## Universitet bu gün

Edinburq Universitetinin hazırkı kampusu yeddi hissədən ibarətdir: Mərkəzi rayon, Kral Binaları, Kiçik Fransa, Əsas Qərbi, Pasxa Buş, Summerhall, Kral Mili. Kampusun ən qədim hissəsi mərkəzi rayondur. Bu ərazidə Corctaun meydanı, 2008-ci ildə yaradılmış İnformatika Forumu (İnstitutu), Duqald Stüart binası, Old Kollec, Humanitar və sosial elmlər kolleci, İnformatika və Hüquq məktəbləri, kitabxana və digər binalar yerləşir. Summerhall adlanan ərazidə Royal Dik baytarlıq tədqiqatları məktəbi və məktəbə aid geniş təsərrüfat sahəsi mövcuddur. Kral Mili yaxınlığında 1998-ci ildə universitetə birləşdirilən Mori Təhsil Evi yerləşir.

Edinburq yaşamaq və oxumaq üçün təhkükəsiz şəhərdir. Burada təhsil alan tələbələr üçün, demək olar ki, bütün şərait yaradılıb. Tələbələr, magistrantlar, doktorantlar yataqxanalar, restoranlar, idman, müxtəlif əyləncə mərkəzləri, media-oxu zalları, rahat nəqliyyat, hətta iş yerlərilə də təmin olunurlar.

Edinburq Universitetinin akademik strukturuna 22 məktəbdən ibarət olan 3 kollec daxildir: Humanitar və sosial elmlər kollecinə İncəsənət, mədəniyyət və ətraf mühit, İlahiyyat, Biznes, Sosial elmlərdə səhiyyə, Tarix, klassika və arxeologiya, Hüquq, Ədəbiyyatlar, dillər və mədəniyyətlər, Mori Təhsil Evi, Fəlsəfə, psixologiya və dil elmləri, İctimai və siyasi elmlər, Fasiləsiz təhsil məktəbləri aiddir. Tibb və baytarlıq kolleci Biotibbi elmlər, Kliniki elmlər və səhiyyə, Molekulyar və kliniki tibb, Royal Dik baytarlıq tədqiqatları məktəblərindən ibarətdir. Elmlər və mühəndislik kollecinə Biologiya elmləri, Kimya, Geoelmlər, Mühəndislik, İnformatika, Riyaziyyat, Fizika və astronomiya məktəbləri daxildir.

Edinburq Universiteti müxtəlif proqramlar üzrə onlayn distant təhsil təklif edir. Dünyanın istənilən nöqtəsindən İnternet şəbəkəsinə qoşulmaqla informasiya texnologiyaları və hüquq, innovasiyalar, intellektual mülkiyyət, tibbi etika, memarlıq, elektron tədris, anesteziya təcrübəsi, kliniki təhsil, tibbi informatika, cərrahiyyə, beynəlxalq baytarlıq və s. ixtisaslar üzrə universitetin magistratura pilləsində təhsil almaq mümkündür.

Edinburq Universitetinin kitabxanası hələ universitet yaradılmamışdan əvvəl ayrıca kitabxana kimi fəaliyyət göstərib və hazırda Şotlandiyanın ən böyük universitet kitabxanası hesab olunur. Onun təməli 1580-ci ildə qoyulub və hazırda Əsas Kitabxana adlanır. Kitabxanada 2 milyondan çox kitab, əlyazma, dissertasiya işi, mikroforma və digər materiallar mövcuddur. Bu materialların əksəriyyəti Corctaun meydanında səkkizmərtəbəli binada yerləşən Əsas Kitabxanada - Avropanın ən böyük akademik kitabxanasında toplanıb.

XVII əsrdə universitet kitabxanasının ehtiyatı 2400 cild kitabdan ibarət olub. Hazırda kitabxanada 1200-dən çox əlyazma (inkunabula), XVI əsrə aid 9 min, XVII və XVIII əsrlərə aid 35 min, XIX əsrə aid 60 min çap edilmiş kitab saxlanılır. Kitabxanada reformasiya dövrünə (XVI əsrdə Qərbi Avropada katolik kilsəsinə və papa hakimiyyətinə qarşı dini mübarizə şəklində cərəyan edən feodalizmə qarşı ictimai-siyasi hərəkat) aid zəngin kolleksiya toplanıb. Şekspirin yaradıcılığına aid 1872-1889 və 1964-cü illərdə əldə edilmiş kolleksiyalar da kitabxananın ən dəyərli sərvətlərindəndir. Universitetdə fəaliyyət göstərən digər kitabxanalardan Darvin, Pasxa Buş baytarlıq, Ceyms Klerk Maksvell, Hüquq və Avropa, Mori evi, Yeni kollec, Robertson mühəndislik və elmlər, Roslin İnstitutu, Royal Xəstəxana, Şotland tədqiqatları, Baytarlıq, Qərbi ümumi hospital kitabxanalarını qeyd etmək olar.

Edinburq Universitetinin muzeyində 200 mindən çox incəsənət əsəri, qədim tapıntılar, modellər, musiqi alətləri, elmi-texniki avadanlıq mövcuddur. Portret Kolleksiyası adlanan incəsənət nümunələri universitet yarandığı gündən toplanıb və hazırda təhsil müəssisəsinin divarlarını bəzəyir. Universitetin Qədim musiqi alətləri muzeyi beynəlxalq mahiyyətə malikdir. İki binada yerləşən bu muzey cəmiyyət üçün hər zaman açıqdır. Universitetin elmi nailiyyətlərinə, inkişaf yoluna aid kolleksiyalar Təbii tarix muzeyində, DNK kitabxanasında nümayiş olunur. Universitetin nəzdində Talbot Rays qalereyası, Təsviri incəsənət, Polşa tibb məktəbi, Kimya, anatomiya, resurs mərkəzi kolleksiyaları, Cokburn Geologiya, Şotland tədqiqatları, arxiv muzeyləri fəaliyyət göstərir. Edinburq Universiteti müasir elmin mühüm mühərriki hesab olunur və analitiklər tərəfindən tez-tez Avropada ən güclü tədqiqat mərkəzlərindən biri kimi qeyd edilir. Elmi məqalələrdən sitatgətirilmə göstəricilərinə əsasən, universitetin ən məhsuldar tədqiqat istiqamətlərindən informasiya sistemlərinin araşdırılması, dilçilik və biologiya elmlərini göstərmək olar. Biologiya elmi isə ali məktəbin ən bahalı tədqiqat sahələrindən hesab olunur. Bu sahə üzrə tədqiqat layihəsi orta hesabla təxminən 120.000 funt-sterlinq təşkil edir. Universitet Amerikanın Kaliforniya Texnologiya İnstitutu, Pensilvaniya, Avstraliyanın Melburn, Kanadanın Makginli universitetləri, Fransanın ali məktəbləri ilə əməkdaşlıq edir. Ali məktəb Avropa Tədqiqat Universitetləri Liqasının üzvü olduğundan burada daim incəsənət, pedaqogika, humanitar elmlər, menecment, hüquqşünaslıq, sosial elmlər və səhiyyə sahəsində mühüm tədqiqatlar həyata keçirilir. Ali məktəb elmi tədqiqatlardan ildə 200 milyon funt-sterlinqdən artıq gəlir əldə edir. Bundan əlavə, tələbə təqaüdlərinə, qrantlara ildə 26 milyon funt-sterlinqdən çox vəsait xərclənir. Universitetə ayrı-ayrı şəxslərdən və fondlardan olunan yardımların həcmi 317 milyon funt-sterlinqdən çoxdur ki, bu da ölkə üzrə Oksford və Kembric universitetlərindən sonra üçüncü nəticədir.

## Büdcə xərcləri və təhsil haqqı

Universitetin maliyyə hesabatına əsasən, 2015-2016-cı tədris ilində ali məktəbin endaument fondunun həcmi 317.2 milyon funt-sterlinq, büdcəsi 819 milyon funt - sterlinq təşkil edib. Ötən tədris ilində universitetin ümumi gəlirləri 813.880, ümumi xərcləri 793.301 milyon funt-sterlinq olub. Universitetin kansleri Anna Princess Royal, rektoru Stiv Morrisondur. Ali məktəbin akademik heyəti 3992 nəfər, inzibati işçilərinin sayı 5097 nəfərdir. 2015-2016-cı tədris ilində universitetdə təhsil alan tələbələrin ümumi sayı 35582 nəfər olub. Onlardan 23298 nəfər bakalavr, 12284 nəfər isə magistratura səviyyəsində təhsil alıblar. Universitetdə dünyanın 140 ölkəsindən 5000-dən artıq tələbə təhsil alır. Onlar dünya üzrə 137 milləti təmsil edir. Edinburq Universitetində təhsil haqqı tələbənin oxuduğu kollecdən, məktəbdən, seçdiyi ixtisasdan asılı olaraq dəyişir. Universitetdə bakalavr proqramları üçün təhsil haqları illik 14500-29000, magistr təhsili üzrə isə 16600-23000 funt-sterlinqdir. MBA dərəcəsi əcnəbi tələbəyə 27000 funt-sterlinqə başa gəlir. Universitetin yataqxanalarında yaşamaq üçün ildə 8000 fint-sterlinq tələb olunur. Edinburqda yaşamaq haqları nəqliyyat, qidalanma, ev kirayəsi və şəxsi xərclər nəzərə alınmaqla təxminən 9000 funt-sterlinq təşkil edir. Təhsil haqqını ödəmək üçün tələbəyə kredit təklif olunur. Kreditin məbləği tələbənin ailə büdcəsindən asılıdır. Tələbə kredit borclarını universitetdə təhsil alarkən tədricən ödəyir. Tələbəyə kredit verildiyi gündən hər sentyabr ayı borcun üzərinə faiz əlavə olunur. Buna görə də tələbə borcunu nə qədər tez qaytararsa, o qədər ona sərfəlidir. Əyani və yarımçıq təhsil haqqı isə yenə də tələbənin oxuduğu kollec və məktəbdən asılıdır.

Edinburq Universiteti yüksək akademik göstəriciləri olan tələbələrə təqaüdlər təklif edir. Təqaüd almaq üçün tədris ilinin başlanmasına qədər yüksək qiymətlərə (4,5 və ya 5) malik attestat və ya diplom təqdim etmək lazımdır. Təqaüd müsabiqəsində iştirak etmək üçün qəbul komissiyasının cavabından sonra universitetin saytında onlayn-sifariş vermək lazımdır. Ali məktəb məhdud sayda qrantlar təqdim edir. Magistr proqramları üçün cəmi 30 təqaüd mövcuddur, onların yarısı 5000, digər hissəsi isə 3000 funt-sterlinq təşkil edir. Gələcək bakalavrlar üçün universitet 2000 funt-sterlinq həcmində 15 qrant təqdim edir. Proqram Avropa Birliyinə daxil olmayan ölkələrdən olan əcnəbi tələbələr üçün nəzərdə tutulub. Qeyd edək ki, 2015-2016-cı tədris ilində universitet tələbələrinə 8 milyon funt-sterlinq həcmində maliyyə yardımı göstərib.

Bu cür proqramlar xarici ölkələrin ali məktəblərində nadir hal deyil. Onlar məzunların gələcək karyerası üçün mühüm əhəmiyyət daşıyan vərdişlərin - elmi-tədqiqatların aparılması, ictimaiyyətlə əlaqə və fərdi sahibkarlığın inkişafına yönəlib. Edinburq Universitetində "Erasmus" proqramı çərçivəsində Avropa ölkələrilə tələbə mübadiləsi üçün 350, Şimali, Cənubi Amerika, Asiya, Avstraliya ölkələrinin universitetləri üçün isə 170 yer ayrılıb.

Universitetə daxil olmaq istəyən əcnəbi abituriyentlər ingilis dilini ən yüksək səviyyədə mənimsəməli, fakültədən və təhsil səviyyəsindən asılı olaraq 90 baldan az olmayaraq TOEFL iBT və ya 6,5 baldan az olmayaraq IELTS imtahanı verməlidirlər. Gələcəyin magistrləri üçün isə tələblər, bir qayda olaraq, çox yüksəkdir.

Edinburq Universitetində tədris sentyabr ayında başlayır, buna görə də abituriyentlər sənədlərini yanvarın 15-dən gec olmayaraq ali məktəbə təqdim etməlidirlər. Hər il universitetə 47000 abituriyent sənəd verir. Bu isə Birləşmiş Krallığın ali məktəbləri arasında 3-cü göstəricidir. Ali məktəbə hər bir yerə 12 ərizə verilir. Ali məktəb məzunlarının işlə təmin olunma göstəricilərinə görə də fərqlənir. Məzunların 94 faizi ali məktəbi bitirdikdən 6 ay sonra işlə təmin olunurlar.

## Məşhur məzunları

Universitetin məşhur məzunları arasında müasir tarixin böyük simalarından fizik Ceyms Klerk Maksvell, təbiətşünas Çarlz Darvinin, filosof Devid Yumun, riyaziyyatçı Tomas Bayes, cərrah Cozef Listerin, Culius Nyerere (Tanzaniyanın sabiq prezidenti), ABŞ-ın Müstəqillik Bəyənnaməsinə imza atmış Con Uizerspunun, Bencamin Raşın,Yun Po Sunun (Cənubi Koreyanın sabiq prezidenti), Uilyam Uolkerin (Nikaraqua Respublikasının sabiq prezidenti), Qordon Braunun (Böyük Britaniyanın sabiq Baş naziri), Con Rasselin (Böyük Britaniyanın sabiq Baş naziri), Henri Templın (Böyük Britaniyanın sabiq Baş naziri), Çarlz Tupperin (Kanadanın sabiq Baş naziri), Maykl Cullenin (Yeni Zellandiyanın sabiq maliyyə naziri), Adam Smitin (Şotland iqtisadçısı, müasir iqtisadi nəzəriyyənin banisi), Artur Konan Doylun (məşhur yazıçı, Şerlok Holms haqqında detektiv romanların müəllifi), Valter Skottun (dünya şöhrətli yazıçı) adlarını çəkmək olar. Ali məktəbin məzun və müəllimlərindən, tədqiqatçılardan 21 nəfər Nobel, iki nəfər Tyurin, bir nəfər Abel, bir nəfər Filds, 2 nəfər Plutzer elmi mükafatlarına layiq görülüblər. Nobel mükafatı laureatlarından Edvard Appleton, Çarlz Barkla, Maks Born, İqor Tamm, Piter Xiks (fizika üzrə), Piter Doherti (tibb və fiziologiya üzrə), Ceyms Mirrlees (iqtisadiyyat üzrə), Piter Mitçell (kimya üzrə) göstərmək olar. 2016-cı ildə kimya sahəsində Nobel mükafatına layiq görülən Ceyms Freyzer Stoddart da Edinburq Universitetinin məzunudur.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*